**UOT 32:93/94**

**XƏYYAM İSMAYILZADƏ**
*Bakı Dövlət Universitetinin dosenti*
**ekonika22@yahoo.com**

**CAHAN ƏLİYEVA**
*Bakı Dövlət Universiteti*
**cahan.a.262@gmail.com**

# AZƏRBAYCAN-PAKİSTAN: QARŞILIQLI FAYDALI İQTİSADİ-TİCARƏT ƏMƏKDAŞLIĞINDA POTENSİAL VƏ REAL İSTİQAMƏTLƏR

*Məqalədə Asiya regionunun aparıcı dövlətlərindən biri olan Pakistan İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin, xüsusilə, iqtisadi-ticarət əlaqələrinin analizi göstərilir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra iki dövlət arasındakı münasibətlər siyasi və hərbi sahədə intensiv inkişaf etsə də, iqtisadi-ticarət əlaqələrinin mövcud vəziyyəti və onun inkişafına maneəçilik törədən amillər burada geniş şəkildə öz əksini tapmışdır.*

*Açar sözlər*: Azərbaycan Respublikası, Pakistan İslam Respublikası, İƏT, iqtisadi münasibətlər, ticarət əlaqələri, qarşılıqlı əməkdaşlıq, enerji sektoru, kənd təsərrüfatı sektoru, nəqliyyat infrastrukturu, kommunikasiya xətləri.

***Giriş***. Beynəlxalq siyasətdə iki dövlət arasındakı iqtisadi-ticarət əlaqələr ölkələr arasındakı qarşılıqlı əlaqənin mahiyyətini və dinamikasını proqnozlaşdırmaq və təhlil etmək üçün bir sınaq testi hesab olunur. Azərbaycan Respublikası və Pakistan İslam Respublikası tarixi, dini və siyasi cəhətdən ümumi olan iki qardaş müsəlman ölkəsidir. Pakistan və Azərbaycan fərqli coğrafi bölgələrdə yerləşsələr də, bu dövlətlər beynəlxalq siyasi gündəmə əməl etməkdə çox güclü bir koordinasiyaya malikdirlər. Hər iki dövlət bir-birinin beynəlxalq aləmdəki mövqeyini bütün məsələlərdə dəstəkləməyə meyllidir. Əlaqələr hər iki xalqın Fars İmperatorluğunun bir hissəsi olduğu dövrlərə gedib çıxır. Azərbaycanın 1991-ci ildə Sovet İttifaqından ayrılmasından sonra qurulan diplomatik əlaqələr bu iki ölkənin əməkdaşlığının sürətlə inkişaf etməsinə imkan yaratmışdır. Rəsmi diplomatik əlaqələr qurulduqdan sonra ikitərəfli münasibətlər sabit bir sürətlə inkişaf edir. O vaxtdan bəri ölkələr arasında getdikcə güclənən və daha da möhkəmlənən qardaşlıq əlaqələri qurulmuşdur. Azərbaycan torpaqlarını işğal etdiyi üçün Ermənistanın müstəqilliyini tanımaqdan imtina etməsi Pakistanın səmimi münasibətinin bir göstəricisidir. Buna cavab olaraq, Azərbaycan Respublikası da bu ölkənin Kəşmir probleminin həlli istiqamətində atdığı addımları dəfələrlə dəstəklədiyini bəyan etmişdir [2, s.320].

1995-ci ildə Pakistanın Baş naziri Nəvaz Şərifin Bakıya ilk səfərindən və 1996-cı ilin aprelində Azərbaycanın Ümumilli lideri Heydər Əliyevin Pakistana cavab səfərindən əvvəl siyasi sahədə əhəmiyyətli irəliləyiş əldə edilməsinə baxmayaraq, ölkələr iqtisadi sahədə istədikləri əməkdaşlıq səviyyəsinə çata bilmirdilər. İkitərəfli əlaqələrin qurulmasından sonra iki ölkə arasındakı ticarət həcmini artırmaq üçün səylər göstərildi və bir neçə il ərzində ticarət yaxşılığa doğru çox dəyişdi. Bununla belə, 1995-1997-ci illərdə Pakistanın Azərbaycanla ticarət dövriyyəsi bir qədər artdı. 1995-ci ildə 5 milyon ABŞ dolları, sonrakı ildə 12 milyon ABŞ dolları, 1997-ci ildə isə 13 milyon ABŞ dollarına yüksəlməsinə baxmayaraq, tədricən Pakistanın Azərbaycana ixracı durmadan azaldı. Təəssüf ki, nə Azərbaycan, nə də Pakistan öz potensialından kifayət qədər istifadə edə bilmirdi. Son illərdə Azərbaycanda sürətli iqtisadi artım və Pakistanın Asiya regionunun əsas iqtisadiyyatlarından biri olduğunu nəzərə alsaq, mövcud reallıq hər iki ölkə arasındakı əlaqələrin inkişaf imkanlarını əks etdirmədiyi aydın görünür [4, s.69].

Azərbaycan Respublikası və Pakistan İslam Respublikası ortaq tarixi keçmişə və dini yaxınlığa malik olsa da, ikitərəfli ticarət ildə cəmi 7,3 milyon ABŞ dolları təşkil edirdi. Sonra iki dövlət bu rəqəmi növbəti illər ərzində 500 milyon ABŞ dollarına yüksəltmək üçün əməkdaşlıq müqaviləsi imzalamışlar. İkitərəfli münasibətlərin yaranmasından keçən onilliklər ərzində hər iki tərəfdə iqtisadi əlaqələri ən yüksək səviyyəyə qaldırmaq üçün güclü istək vardır. Həm Azərbaycan, həm Pakistan tərəfi bu istiqamətdə əllərindən gələni əsirgəmirlər. Yalnız XXI əsrin əvvəllərindən Azərbaycanın neft və iqtisadi region kimi yüksəlişindən sonra iqtisadi əlaqələr sürətlənməyə başladı [6].

1995-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində müqavilə imzalanaraq iki dövlət arasında ticarət əlaqələrinə başlanılmışdır. Bu təşkilat ilk dəfə 1964-cü ildə İran, Türkiyə və Pakistanın iştirakı ilə "Regional İnkişaf Əməkdaşlığı Təşkilatı" olaraq qurulmuşdur. 1976-cı ildə imzalanmış İzmir Anlaşması bu təşkilatın inkişafında əhəmiyyətli rol oynamışdır. Belə ki, müqavilədə iştirakçı ölkələr həm azad ticarət zonasının, həm də gömrük ittifaqının yaradılmasını zəruri hesab edirdilər. Azərbaycan Respublikası İƏT Nazirlər Şurasının 1992-ci ilin 28 noyabr tarixində İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı təşkilata üzv olmuşdur. Bundan başqa, 1992-ci ildə İstanbulda keçirilmiş xarici işlər nazirlərinin toplantısında yeni üzvlər qəbul edildi. Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan və Əfqanıstan. Üzv dövlətlər 14 may 1996-cı ildə Türkmənistan sammitində qarşılıqlı iqtisadi əməkdaşlığın inkişaf etdirilməsini müzakirə etdilər və iqtisadi-ticarət əlaqələrinin prioritet sahələrini müəyyənləşdirdilər. Üzv ölkələr arasında nəqliyyat və kommunikasiya xətlərinin birləşdirilməsində əhəmiyyətli olan Tejeh-Saraxs-Məşhəd dəmiryolunun açılışı da olmuşdur [3, s.51].

İki dövlət arasında 1995-ci ildə bağlanmış Ticarət və İqtisadi Əməkdaşlıq Sazişinin müddəti 1998-ci ildə başa çatdı. Əfsuslar olsun ki, o vaxtdan bəri iki ölkə arasında iqtisadi məsələlərdə əhəmiyyətli razılaşma əldə edilməmişdir. Ticarət sektorunda rəsmi institusional tənzimləmələrin olmaması iş adamlarının iki ölkə arasında iqtisadi fəaliyyətə başlamasına birbaşa mane olurdu. Pakistanla Azərbaycan arasında mövcud olan yeganə iqtisadi institusional razılaşma Birgə Nazirlər Komissiyası (JMC) olaraq bilinirdi. Birgə Nazirlər Komissiyası təəssüf ki, hər iki tərəfin iqtisadi potensialından tam şəkildə istifadə edə bilməyən yeganə ikitərəfli ticarət quruluşu idi [5, s.46]. Bu vahid qurum hər iki tərəfin səlahiyyətlərinə lazımi qədər diqqət yetirmir və ölkələrin iqtisadi potensialını və mövcud ticarətin həcminin perspektivli olmamasını nəzərə alaraq tərəfdaşların hər biri Biznes Korporasiyasını daha da gücləndirmək üçün iş dünyasına müraciət edir. Azərbaycan-Pakistan Birgə Nazirlər Komissiyasının beşinci sessiyası 6-7 dekabr 2011-ci il tarixlərində Bakıda keçirildi. Tərəflər müxtəlif sahələrdə iqtisadi əlaqələrin genişləndirilməsi imkanlarını nəzərdə tutan protokol imzaladılar. Qarşılıqlı işgüzar səfərlərin, biznes forumların və sərgilərin keçirilməsi, Pakistan və Azərbaycan şirkətlərinin birgə infrastruktur layihələrinin həyata keçirilməsi barədə qərar qəbul edildi. İstər Azərbaycan, istərsə də Pakistan iş təcrübələrini paylaşaraq və bazarları birləşdirərək ikitərəfli ticarəti artırmaq imkanına malikdirlər. Belə ki, neft Azərbaycanın əsas əmtəəsi olduğu və Pakistanın ciddi enerji çatışmazlığını nəzərə alaraq, Pakistan Azərbaycana neft və qaz sektorunda sərmayə qoyan qarşılıqlı bazardır.




*Azərbaycanın Pakistanla Ticarəti: 2001-2010* [4, s.69].



1 Mart 2017-ci il tarixində Pakistanın paytaxtı - İslamabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Zirvə Toplantısı keçirildi. Görüşdə Pakistan İslam Respublikasının Baş naziri - Məhəmməd Nəvaz Şərif və Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın hərbi sənaye kompleksi məhsullarının Azərbaycana idxalına dair müqavilə bağlamaq üçün qarşılıqlı razılığa gəldilər. Öz növbəsində, müdafiə sənayesi və iqtisadiyyatla bağlı məsələlər də müzakirə edildi. Pakistan və Azərbaycanın energetika nazirlikləri arasında 2017-ci ilin fevral ayında bağlanmış ikitərəfli müqaviləyə əsasən, Azərbaycan Pakistana neft və qaz məhsulları, o cümlədən, qızdırıcı neft, benzin, dizel yanacağı və təbii qaz ixrac etdi. 2017-ci ildə iki ölkə arasındakı əməliyyatların ümumi dəyəri 8,34 milyon dollar olması təxmin edilirdi. Bu da, 2016-cı ilin eyni dövrü ilə müqayisədə 22,46% artım demək idi [8].

Əməkdaşlıq və müştərək müəssisələr üçün digər əhəmiyyətli sektorlardan biri enerji sektorudur. Bildiyimiz kimi, Azərbaycan neft və enerji istehsal edən ən böyük dövlətlərdən biridir. Pakistan isə bu məhsulların ən böyük istehlakçılarındandır. Hər iki dövlət Pakistanın enerji ehtiyaclarını ödəmək üçün əməkdaşlıq müqaviləsi imzaladı. Azərbaycandan mayeləşdirilmiş təbii qazın (LNG) idxalı ilə bağlı Pakistanla Azərbaycan arasında dialoqlar da bu işə idmət edirdi [6].

Azərbaycan neft və qaz kəşfiyyatı sahəsində öz təcrübəsini Pakistan tərəfinə təklif edə bilər. Belə ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), AZ Petrol, Branobel, Xəzər Beynəlxalq Neft Şirkəti (CIPC), Nobel Petrol Grupu, Şimali Abşeron İdarəetmə Şirkəti (NAOC) və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti də (SOCAR) daxil olmaqla yeddi şirkət bu sektorda tanınır və Pakistana sərmayə qoya bilər. Pakistanda mövcud olan "1976-cı il Xarici İnvestisiyaların Mühafizəsi Qanunu"na əsasən, yerli qanunlar nəzərə alınmaqla, Pakistanın neft sektoruna sərmayə qoyulması yüksək təhlükəsizlik ilə təmin olunur [5, s.50].

Azərbaycanın Pakistanda, xüsusən də Xayber-Paxtunxva və Bəlucistan əyalətlərində neft və təbii qaz hasilatına sərmayə qoyması üçün geniş imkanları var. Pakistan hazırda ölkədə enerji və qaz çatışmazlığı problemi ilə üz-üzədir. Azərbaycandan enerji mənbələri alaraq bu çatışmazlıqları aradan qaldırmaq mümkündür. Məsələn, hazırda enerji böhranı yaşayan Sind əyalətində, bölgə hökuməti azərbaycanlı sahibkarları qaz və alternativ enerji mənbələri üzərində işləyən kiçik elektrik stansiyalarının inşasına sərmayə qoymağa dəvət edir. Bu sahədə geniş təcrübəyə malik olan Azərbaycan qardaş ölkədə bu sektorun inkişafına töhfə verə bilər. Prezident İlham Əliyev Xayber-Paxtunxva əyalətində Azərbaycan milli şirkətinə 1000 meqavat elektrik enerjisi istehsal edəcək bir stansiya tikməyi göstəriş verməsi əməkdaşlığın konkret nümunəsi hesab oluna bilər. Əlbəttədə ki, oxşar layihələrin gələcəkdə də həyata keçirilməsi planlaşdırılırdı [4, s.59].

İki dövlət arasında münasibətlərin inkişafı və keçirilən görüşlər gələcəkdə ikitərəfli ticarətin inkişafına daha yaxşı istiqamətlənməli idi. Pakistan potensial olaraq Azərbaycan bazarlarında digər rəqiblərini əvəz edə bilər. Əvvəllər qeyd edildiyi kimi, bütün dünyada ucuz əmtəə olan neft və qaz Azərbaycan iqtisadiyyatının böyük bir hissəsini təşkil edir və qiymətlərin sabit qalacağı ehtimal olunurdu. Beləliklə, Azərbaycan Pakistanın iqtisadiyyatına qidalandırmaq üçün yeni gəlir mənbələrinin tapılmasına kömək edə bilər. Bu səbəbdən, paralel olaraq, 2012-ci ildə Azərbaycan iqtisadi bazarların və ticarət yollarının şaxələndirilməsini nəzərdə tutan '2020-ci ildə Azərbaycan-Gələcəyə Baxış' iqtisadi vizyonunu başlatdı. Azərbaycan Pakistanın kənd təsərrüfatı və tekstil geyim sektoruna diqqət ayırması böyük bir potensial ola bilər. Pakistan Azərbaycanın enerji sektoruna investisiya yatırmaqla yanaşı, ticarət sektorlarına da sərmayə qoya bilər. Eyni zamanda, tələb olunan mal və xidmətlərin tədarükünü uğurla davam etdirmək də mümkündür. Bütün bunlar yaxın gələcəkdə hər iki tərəfdə imkanların və işgüzar fəaliyyətin yaxşı nəticələnə biləcəyindən xəbər verir [6].

2005-ci ildə iki ölkə arasında iqtisadi və ticarət əlaqələrini inkişaf etdirmək üçün yeni imkanlar yaranmışdır. 2005-ci ildə Bakıda Pakistan Milli Bankının nümayəndəliyinin açılması iki ölkə arasındakı iqtisadi əlaqələrin inkişafına töhfə verə biləcək əhəmiyyətli bir hadisə idi ki, bu da Azərbaycan ilə Pakistan arasında əlaqələrin inkişafının sürətləndirilməsində mühüm rol oynayırdı. Pakistan Milli Bankının Bakı filialının açılması və Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının prezidenti cənab Ələkbər Məmmədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin və Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən şirkət nümayəndələrinin 10 fevral 2005-ci ildə Karaçi şəhərində keçirilən “Expo Pakistan 2005” beynəlxalq ticarət sərgisində iştirakı yuxarıda

göstərilənlərə bariz nümunədir. Hər iki ölkə ticarət həcmini artırmaq niyyətində idi və bütün bunlar əməkdaşlığın hüquqi əsası olmuşdur [1, s.182].

*2013-14-cü illərdə Azərbaycana Əsas İxrac Məhsulları*
*(Milyon ABŞ dolları)*

| **İxrac məhsulları** | **Miqdar** |
|---|---|
| Düyü | 28.06 |
| Meyvə | 3.31 |
| Yağ toxumları və yağlı meyvələr | 1.99 |
| Sintetik parçalar | 0.98 |

Azərbaycan Pakistan təcrübəsi nəzərə alınmaqla, dərman və cərrahiyyə mallarının istehsalı üzrə birgə müəssisələr yarada bilər. İqtisadi əməkdaşlıq fəal şəkildə inkişaf edərsə, hər iki ölkə on il ərzində ildə 10 milyard ABŞ dolları həcmində gəlir əldə etməyi ümid edir. Artıq 20 ildir ki, Pakistanla Azərbaycan arasında ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir. Müşahidələr göstərir ki, hər iki dövlət beynəlxalq aləmdə fəal əməkdaşlıq edir və beynəlxalq təşkilatlar platformasında bir-birinin mövqeyini təmənnasız olaraq dəstəkləyirlər. Ticarətin inkişafının aşağı səviyyədə olmasına baxmayaraq, dövlətlər beynəlxalq ticarət vasitəsilə müxtəlif məhsullar daxil olmaqla bir-birilərinin istehsal və xidməti ilə yaxından maraqlanırlar. Hər iki tərəfin səlahiyyət sahibləri iqtisadi sahədə əldə etdikləri nailiyyətlərin səviyyəsini mövcud olan siyasi səviyyəyə qaldırmaq öhdəliklərini nümayiş etdirirlər. Son zamanlar Azərbaycan və Pakistan bütün sahələrdə arzu olunan əməkdaşlığa nail olmaq məqsədilə iqtisadi əlaqələri genişləndirmək üçün yeni təşəbbüslərlə çıxış etməyə başlamışlar.

Hər iki ölkənin bank, maliyyə, təhsil, kənd təsərrüfatı, elm, informasiya texnologiyaları, eləcə də neft-qaz, turizm, mühəndislik, mədəniyyət və investisiya sektorlarında əlaqələri inkişaf etdirmək üçün bir sıra potensial və real imkanları var. Pakistan toxuculuq sənayesi üçün Azərbaycandan pambıq almaqda maraqlıdır. Eyni zamanda, Pakistan tekstil markalarının hələ sovet dövründə məşhur olduğu 55 hazır tekstil məhsulunu, həmçinin, Azərbaycanda yüksək tələbat olan şəkər və tibbi ləvazimatları da ixrac edə bilər. Həmçinin, Azərbaycan digər Asiya ölkələrinə daha çox məhsul ixrac etmək məqsədilə öz məhsullarının Karaçi limanında saxlanılması imkanından istifadə etməyə çalışır. Hər iki ölkə ticarət və iqtisadi əlaqələrin inkişafında israrlıdır. Həm Azərbaycan, həm də Pakistan hesab edir və əmindir ki, dövlətlər arasında iqtisadi inkişafa mane olan problemlərin dərindən öyrənilməsi və onların aradan qaldırılması yaxın gələcəkdə ticarətin həcmini dəfələrlə artıra bilər.

| **2021-cu ilin yanvar-iyun aylarında Azərbaycanın Pakistan İslam Respublikası ilə xarici ticarətinə dair məlumatlar (min ABŞ dolları)** | | |
|---|---|---|
| **İxrac** (Export) | **İdxal** (Import) | **Dövriyyə** (Turnover) |
| 176,71 | 5.123,14 | 5.299,85 |

Mənbə: *Dövlət Gömrük Komitəsi*
Qeyd: *hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan xam neft və təbii qazın dəyərinə dair məlumatlar nəzərə alınmışdır[7].*

Pakistanın aqrar sektorda böyük təcrübəsi, o cümlədən düyü, pambıq məhsulları, hazır geyim və tekstil parçaları, kənd təsərrüfatı ilə bağlı məhsullarının Azərbaycana ixrac etməsi potensialı iki ölkə arasında ticarətin həcmini əhəmiyyətli dərəcədə artıra bilər. Prinsipcə, mühəndislik və istehlak malları, dərman vasitələri, idman malları, cərrahiyyə alətləri və çadırlar və s. məhsullarla da ticarəti inkişaf etdirmək mümkündür. Hər iki tərəfin özəl sektorunun nümayəndələri bu işi görməklə əlaqələr gücləndirməlidir. Onlar müstəqil surətdə qarşılıqlı maraq doğuran sahələri müəyyən edə bilər və bu istiqamətdə ticarət əlaqələrinin də genişləndirilməsinə nail ola bilərlər. İş adamları birgə müəssisələ-

rin yaradılması imkanlarını da araşdıra bilər. İki qardaş dövlət bir-birilərinə ən çox sevilən millət (MFN) statusu verərək ticarət fəaliyyətini asanlaşdıra və əlaqələri əhəmiyyətli dərəcədə artıra bilər, üstəgəl, siyasi və strateji əlaqələr də əlverişlidir, buna görə də Azad Ticarət Sazişi (FTA) və ya Güzəştli Ticarət Sazişini asanlıqla (PTA) imzalamaq mümkündür. Bu müqavilələr özəl sektor üçün qarşılıqlı bazara çıxış üçün daha təsirli vasitə hesab olunur. Bütün bunları həyata keçirtmək mümkün olarsa, Azərbaycan-Pakistan ikitərəfli münasibətləri, o cümlədən iqtisadi-ticarət əlaqələrini daha yüksək səviyyəyə qaldırmaq olar [5, s.50].

***Nəticə***. Tam əminliklə söyləmək olar ki, bu gün Azərbaycan-Pakistan münasibətləri nəinki iqtisadi-ticarət sahəsində, bütün sahələrdə dövlət və hökumət başçılarının səyi nəticəsində özünün ən yüksək inkişaf mərhələsini yaşayır. Belə ki, son vaxtlar iki ölkə arasındakı hərbi-siyasi və iqtisadi əlaqələri intensivləşdirmək və mövcud potensialdan daha səmərəli istifadə etmək üçün hər iki dövlət əllərindən gələni əsirgəmirlər. Azərbaycanın II Qarabağ müharibəsində qazandığı qələbə və regionda yaranan yeni reallıqlar və əməkdaşlıq imkanları ölkələrimiz arasında əlaqələrin dərinləşməsi istiqamətində yeni perspektivlər açır və gələcəyə nikbin baxmaq üçün böyük ümidlər vəd edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi - AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ – (sənədlər məcmuəsi) 2005, I hissə, s.182-183.
2. Həsənov Ə.M._Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşriyyatı, 2005, 631 s.
3. Şəkərəliyev A.Ş Dövlətin İqtisadi Siyasəti: Reallıqlar və Perspektivlər. B.: Təhsil, 2009, 414 s.
4. Azerbaijan&Pakistan 20 Years of Friendship and Cooperation - Mohammed Asif Noor / The Diplomatic Insight, 2013, p.53-57.
5. Pakistan-Azerbaijan Economic and Defence Cooperation - Kamal Makili-Aliyev and Khurram Abbas / IPRI Journal Pakistan XVI-Azerbaijan, No.1: 42-58
6. Azerbaijan and Pakistan Trade and Business Potential - Muhammad Asif Noor/ Daily Times, October 18th 2018. - https://dailytimes.com.pk/311389/azerbaijan-and-pakistan-trade-and-business-potential/
7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – rəsmi səhifə. - https://economy.gov.az/en/article/international-economic-cooperations
8. Azerbaijan, Pakistan discuss energy co-op / Ləman Məmmədova / Azernews.az İnformasiya Agentliyi, 30 January 2019. - https://www.azernews.az/oil_and_gas/144816.html



**ХАЙЯМ ИСМАИЛЗАДЕ**
*Доцент Бакинского Государственного Университета*

**ДЖАХАН АЛИЕВА**
*Бакинский Государственный Университет*


## АЗЕРБАЙДЖАН-ПАКИСТАН: ПОТЕНЦИАЛЬНЫЕ И РЕАЛЬНЫЕ НАПРАВЛЕНИЯ ВЗАИМОВЫГОДНОГО ЭКОНОМИЧЕСКОГО И ТОРГОВОГО СОТРУДНИЧЕСТВА


В статье анализируются отношения между Исламской Республикой Пакистан, одной из ведущих стран азиатского региона, и Азербайджанской Республикой, в частности торгово-экономические отношения. Хотя отношения между двумя странами интенсивно развивались в политической и военной сферах после восстановления независимости Азербайджана, здесь широко отражены современное состояние торгово-экономических отношений и факторы, препятствующие их развитию.



*Ключевые слова*: Азербайджанская Республика, Исламская Республика Пакистан, ОЭС, экономические отношения, торговые отношения, взаимное сотрудничество, энергетический сектор, сельскохозяйственный сектор, транспортная инфраструктура, линии связи.

**KHAYYAM ISMAILZADEH**
*Associate Professor of Baku State University*

**JAHAN ALİYEVA**
*Baku State University*

## AZERBAIJAN-PAKISTAN: POTENTIAL AND REAL DIRECTIONS OF MUTUALLY BENEFICIAL ECONOMIC AND TRADE COOPERATION

The article analyzes the relations between the Islamic Republic of Pakistan, one of the leading countries in the Asian region, and the Republic of Azerbaijan, in particular, economic and trade relations. Although relations between the two countries have developed intensively in the political and military spheres since the restoration of Azerbaijan's independence, the current state of economic and trade relations and the factors hindering its development are widely reflected here.

*Keywords*: Republic of Azerbaijan, Islamic Republic of Pakistan, ECO, economic relations, trade relations, mutual cooperation, energy sector, agricultural sector, transport infrastructure, communication lines.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 26 yanvar 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.*
*Rəyçilər: s.ü.f.d. Fərhad Hüseynov, t.e.d. Sevinc Yusifzadə.*